# Stokholmda "Türk dünyasının milli mədəniyyəti" adlı konsert proqramı keçirilib

**İsveçin paytaxtı Stokholm şəhərində "Türk dünyasının milli mədəniyyəti" adlı konsert proqramı keçirilib.**

AZƏRTAC xəbər verir ki, müxtəlif türkdilli icmaların bir araya gəldiyi tədbir Özbəkistanın "Hicran" Mədəniyyət Dərnəyi tərəfindən təşkil olunub.

Tədbirdə Azərbaycanı SAF - İsveç Azərbaycan Birliyi təmsil edib. SAF-ın sədri Sevda Dadaşovanın təşəbbüsü ilə təşkil olunan sərgidə Azərbaycanın atributları, milli aksesuarları, geyimləri, kitabları və digər mədəni nümunələri tədbir iştirakçılarına təqdim olunub. Sərgi vasitəsilə Azərbaycanın zəngin mədəni irsi tamaşaçılarla bölüşülüb.

Konsertdə özbək, qazax, türk və Azərbaycan sənətkarları çıxış ediblər. Tədbir çərçivəsində opera müğənnisi Burcu Kuru, İsveçdə yaşayan azərbaycanlı pianoçu Aynur Məlikova və tar ifaçısı Fərid Xankişiyev Azərbaycan və türk musiqisinin incilərini ifa edərək proqramın zənginləşməsinə töhfə veriblər. Onların ifasında Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan" operettasından "Qızlar xoru", Tofiq Quliyevin "Sənə də qalmaz", Vasif Adıgözəlovun "Qərənfil" kompozisiyası və "Ay Laçın" xalq mahnısı səsləndirilib.

Tədbirin əsas məqsədi Stokholmda yaşayan türkdilli icmalar arasında birlik və həmrəyliyi təşviq etmək, eləcə də bu xalqların mədəniyyətini daha geniş auditoriyaya tanıtmaq olub.

Azərbaycan.-2025.- 1 iyul (№ 131).- S.11.